## Nağdsız ödənişləri stimullaşdıracaq yeni dövlət proqramı hazırlanır

Azərbaycan Respublikası Mərkəzi Bankının Ödəniş sistemləri və hesablaşmalar departamentinin direktor müavini Vahid Qurbanlı «Azərbaycanda milli ödəniş sistemləri» mövzusunda çıxışında demişdir:

- Son 10 ildə Mərkəzi Bank tərəfindən elektron ödəniş sistemlərinin yaradılması istiqamətində aparılan məqsədyönlü islahatlar nəticəsində ölkədə beynəlxalq standartlara cavab verən Milli Ödəniş Sistemi infrastrukturu fəaliyyət göstərir. Milli Ödəniş Sisteminin əsas komponentlərindən hesab olunan iri və təcili ödənişlər üzrə Real Vaxt Rejimində Banklararası Hesablaşmalar Sistemi - AZİPS 2001-ci ildən, xırda və daim təkrarlanan ödənişlərin elektron daşıyıcılarla həyata keçirilməsinə imkan verən Xırda Ödənişlər üzrə Hesablaşma Kliring Sistemi - XÖHKS isə 2002-ci ildən müvəffəqiyyətlə istifadə olunur. Növbəti mərhələdə ödəniş kartları bazarının daha da inkişaf etdirilməsi məqsədilə Mərkəzi Bank tərəfindən «MilliKart» Prosessinq Mərkəzi yaradılmış, 2006-cı ildə respublikada fəaliyyət göstərən 18 kommersiya bankının idarəçiliyinə və istifadəsinə verilmişdir.

Milli Ödəniş Sistemi infrastrukturunun daha da genişləndirilməsi, regionlarda əhali və təsərrüfat subyektlərinin maliyyə xidmətlərinə çıxış imkanlarının artırılması məqsədilə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə birlikdə həyata keçirilən «Azərpoçt» layihəsinin başa çatdırılması nəticəsində «Azərpoçt» MMC-nin filial və şöbələrində maliyyə, o cümlədən nağdsız ödəniş xidmətlərinin göstərilməsinə imkan verən infrastruktur yaradılmışdır. Mərkəzi Bank tərəfindən «Azərpoçt» MMC-nin 63 filialına və onların tərkibində fəaliyyət göstərən 867 poçt şöbəsinə maliyyə xidmətlərinin göstərilməsi üçün müvafiq icazələr verilmişdir. Beləliklə, regionlarda, o cümlədən ucqar kənd yerlərində əhalinin, təsərrüfat subyektlərinin bank xidmətlərindən istifadə etməsi üçün imkanlar yaradılmışdır.

Bütövlükdə, ödəniş sistemlərində 2012-ci ilin 9 ayı üzrə emal edilmiş ödənişlərin həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 16% (11 653 milyon manat) artaraq 84423 milyon manat təşkil etmişdir. Ötən ilin 3-cü rübünün göstəriciləri ilə müqayisədə banklar tərəfindən dövriyyəyə buraxılmış ödəniş kartlarının sayı 10% (460 min) artaraq 4,92 mln. ədədə, bankomatların sayı 8% (168 ədəd) artaraq 2224 ədədə, POS-terminalların sayı isə 2 dəfədən çox (24,5 min) artaraq 36702-yə çatmışdır.

Ölkə başçısının bir sıra fərmanlarında vergi, rüsum, icarə haqqı və digər büdcə ödənişlərinin yalnız bank vasitəsilə toplanılması, eyni zamanda dövlət orqanları tərəfindən göstərilən xidmətlərə görə rüsumların və digər ödənişlərin real vaxt rejimində elektron formada ödənilməsinin təmin edilməsi qarşıda mühüm vəzifələr kimi müəyyənləşdirilmişdir. Verilmiş tapşırıqların vaxtında və səmərəli icrasının təmin edilməsi məqsədilə Mərkəzi Bankda «Hökumət Ödəniş Portalı»nın yaradılması qərara alınmış, müvafiq dövlət orqanlarının fəal iştirakı ilə bu istiqamətdə fəaliyyətə başlanılmışdır. Layihənin ilkin mərhələsində Vergilər və Maliyyə nazirlikləri, DİN-in Baş Dövlət Yol Polisi İdarəsi və Dövlət Sosial Müdafiə Fondu «Hökumət Ödəniş Portalı»na inteqrasiya olunmuşdur. Nəticədə, «Azərpoçt» MMC-nin və 41 bankın 1200-ə yaxın ödəniş məntəqəsində nağd formada qəbul edilən ödənişlərlə yanaşı, sistemin internet resurslarından istifadə edilməklə ödəniş kartları ilə nağdsız formada kommunal xidmətlərin, vergilərin, yol hərəkəti qaydalarının pozulması ilə əlaqədar inzibati xətalara görə cərimələrin, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, torpaq pay mülkiyyətçiləri və digər sığortaedənlər tərəfindən ödənişlərin həyata keçirilməsi mümkün olmuşdur.

Hazırda Daxili İşlər Nazirliyinin və Dövlət Gömrük Komitəsinin daxili informasiya sistemlərinin «Hökumət Ödəniş Portalı»na inteqrasiya olunması istiqamətində işlər icra dövründədir. Yaradılmış infrastrukturdan istifadə edilməklə əhalinin, sahibkarların və hüquqi şəxslərin identifikasiya olunması və nağdsız formada ödənişlər apara bilməsi üçün «Giriş-Çıxış» İAMAS və AVİS - «Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi» ilə inteqrasiya həyata keçirilməlidir. Cari ilin sonuna kimi bu istiqamətdə işlərin yekunlaşdırılması nəzərdə tutulur.

Növbəti mərhələlərdə Fövqəladə Hallar, Sənaye və Energetika, Səhiyyə nazirlikləri, Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və digər dövlət orqanları tərəfindən göstərilən xidmətlərə görə ödəmələrin ödəniş kartları vasitəsilə həyata keçirilməsi mümkün olacaqdır.

Respublikada nağdsız dövriyyənin inkişaf etmiş ölkələr səviyyəsinə çatdırılması, habelə ödəniş xidmətlərinin institusional və hüquqi bazasının daha da genişləndirilməsi məqsədilə Mərkəzi Bank tərəfindən «Azərbaycan Respublikasında müasir elektron ödəniş xidmətlərindən istifadənin genişləndirilməsi üzrə 2013-2017-ci illər üçün Dövlət Proqramı» hazırlanmışdır. Dövlət Proqramında müasir elektron ödəniş alətləri və bank texnologiyalarından istifadənin genişləndirilməsi, elektron ticarətin inkişafının sürətləndirilməsi, nağdsız dövriyyənin xüsusi çəkisinin artırılması, ödəniş sistemləri və hesablaşmalar sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi və digər mühüm tədbirlər nəzərdə tutulmuşdur. Həyata keçirilən işlərin uğurlu alınması üçün vacib şərtlərdən biri də cəmiyyətin daim maarifləndirilməsi ilə bağlıdır. Bu istiqamətdə son vaxtlar ayrı-ayrı mətbuat orqanlarında, televiziyalarda, xüsusilə sahibkarlar, iş adamları arasında populyar olan «Vergilər» qəzetində yazıların, mütəxəssis rəylərinin yerləşdirilməsi müsbət rola malikdır.